**HepB** hepatit B xəstəliyinə qarşı peyvənd

**BCG** vərəm əleyhinə peyvənd

**OPV** poliomielitə qarşı peyvənd

**Hib** göyöskürək, difteriya, tetanus, hepatit B və B tipli hemofil infeksiyaya qarşı peyvənd

**Pk** pnevmokok infeksiyasına qarşı peyvənd

**QPM** qızılca, parotit və məxmərəyə qarşı peyvənd

**GDT** göyöskürək, difteriya və tetanusa qarşı peyvənd

**DT** difteriya və tetanusa qarşı peyvənd

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

# PEYVƏND

*bunları bilmək vacibdir!*

## PROFİLAKTİK PEYVƏND TƏQVİMİ

| | 1-ci 12 saat ərzində | 4-7-ci gün | 2 ay | 3 ay | 4 ay | 6 ay | 12 ay | 18 ay | 6 yaş |
|---|---|---|---|---|---|---|---|---|---|
| HepB | ✓ | | | | | | | | |
| BCG | | ✓ | | | | | | | |
| OPV | | ✓ | ✓ | ✓ | ✓ | | | ✓ | |
| Hib | | | ✓ | ✓ | ✓ | | | | |
| Pk | | | ✓ | | ✓ | ✓ | | | |
| QPM | | | | | | | ✓ | | ✓ |
| GDT | | | | | | | | ✓ | |
| DT | | | | | | | | | ✓ |



**Peyvəndlərdən İMTİNA ETMƏYİN!**

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
Bakı, AZ1122, H. Zərdabi küç., 96
Tel: 431-60-88, Faks: 430-52-85
office@isim.az www.isim.az

Buklet "2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəaliyyət Planına əsasən, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanaraq çap edilmişdir.

**Peyvəndlərin məhz vaxtında və bütövlükdə aparılması uşaqların sağlamlığını qoruyur!**

**İnfeksion xəstəliklər** çox təhlükəli olub, ağır formalarında hətta ölümlə də nəticələnə bilər. Peyvənd isə uşaqlarda yoluxucu xəstəliklərə qarşı immunitet (xəstəliyə tutulmama qabiliyyəti) yaradır. Buna görə də uşaqların bu xəstəliklər əleyhinə peyvənd olunması vacibdir.

Peyvəndlərin aparılması nəticəsində bir sıra xəstəliklər qlobal səviyyədə aradan qaldırılıb. Ağır yoluxucu xəstəlik olan poliomielitə yoluxanların sayı Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən görülən tədbirlər nəticəsində ölkəmizdə sıfıra endirilib. Ümumdünya Səhiyyə Təşkilatı 2002-ci ildə Azərbaycana "Poliomielitdən azad ölkə" statusunu verib.

**Hazırda Azərbaycanda hepatit B, vərəm, poliomielit, difteriya, göyöskürək, tetanus, B tipli hemofil infeksiya, qızılca, parotit, məxmərək xəstəliklərinə qarşı peyvənd aparılır.**

Dövlət tibb müəssisələrində peyvəndlər dövlət hesabına edilir.

**Yoluxucu xəstəliklərin başlıca profilaktika yolu peyvənddir!**

### Qızılcanın, epidemik parotitin və məxmərəyin profilaktikası

Qızılca, epidemik parotit və məxmərək əleyhinə peyvənd bu xəstəliklərin profilaktikasının ən uğurlu üsuludur.



**Uşaqları qızılca-parotit-məxmərək əleyhinə vaksinlə (üç infeksiyaya qarşı) peyvənd etmək vacibdir. Bu peyvəndin 1-ci dozası Milli peyvənd təqviminə uyğun olaraq, uşaqlara 12 aylığında, 2-ci dozası isə 6 yaşında vurulur.**

### Difteriyanın, göyöskürəyin, tetanusun, Hib infeksiyanın və hepatit B-nin profilaktikası

Difteriya, göyöskürək, tetanus, Hib infeksiya və hepatit B-dən qorunmanın ən effektiv yolu vaksinasiyadır. Hepatit B əleyhinə HepB vaksininin ilk dozası yenidoğulmuşlara doğuşdan sonra 12 saat ərzində vurulmalıdır.

**Çoxkomponentli vaksinin üstünlüyü bir neçə xəstəliyə qarşı vaksinlərin bir inyeksiyada yeridilməsidir.**

### Vərəmin profilaktikası

Vərəm infeksiyasına yoluxmanın qarşını almaq məqsədilə bütün yenidoğulmuşlar 4-7 günlükdə vərəm əleyhinə BCG vaksini ilə peyvənd olunmalıdırlar. Bu peyvənd uşaqlar arasında vərəm meningiti və vərəm infeksiyasının digər ağır formalarının baş verməsinin qarşısını alır.

## Diqqət!

- ✓ Poliomielitə qarşı vaksin pipetlə uşağın ağız boşluğuna damızdırılır, digər vaksinlər isə inyeksiya yolu ilə yeridilir.
- ✓ Bir yaşa qədər uşaqlarda bu inyeksiyalar bud əzələsinə vurulur.
- ✓ Peyvənddən sonra uşaqda baş verə biləcək reaksiyalar barədə həkimdən öyrənin.
- ✓ Peyvənddən sonra reaksiya olduqda dərhal həkimə müraciət edin.

**İmmunoprofilaktika (peyvənd) müxtəlif infeksion xəstəliklərin qarşısının alınmasında ən effektiv vasitələrdəndir. Peyvənd uşağa infeksiyaya qarşı immun cavab yaratmaqda kömək edir. Nəticədə, uşaq infeksiyaların əksəriyyətindən müdafiə olunur.**